*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (2) 2023*
https://doi.org/ 10.46868/atdd.2023.288

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 02.01.2023*
*Kabul tarihi |Accepted: 20.03 2023*
*Yayın tarihi |Published : 25.04.2023*

**Mübariz Ağalarlı**

**https://orcid.org/0000-0001-8588-1019**
*Associate Professor, Azerbaijan National Academy of Sciences of History Institute; Azerbaijan State Pedagogical University, Azerbaijan, mubariz.aqalar@gmail.com*
*Bu bakale Azerbaycan Kültür Başkenti Şuşa'nın 270. yılı anısına ithaf edilmiştir.*

***Atıf Künyesi | Citation Info***
Ağalarlı, M. (2023). Güney Qafqaz bölgəsində sülhün və təhlükəsizliyin təmin edilməsində "Şuşa Bəyannaməsi"nin rolu. *Akademik Tarih ve Düşünce Dergisi, 10* (2), 258-274.

# Güney Qafqaz bölgəsində sülhün və təhlükəsizliyin təmin edilməsində "Şuşa Bəyannaməsi"nin rolu

***Öz***

*Sovet imperiyası dövründən miras qalan etnik münaqişə ocaqlarından biri də Dağlıq Qarabağ konflikti olmuşdur. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra (18 oktyabr 1991-ci il) bu münaqişə daha da böyüyərək Ermənistanla Azərbaycan arasında müharibəyə səbəb olmuş, Ermənistan – Azərbaycan – Dağlıq Qarabağ münaqişəsi mərhələsinə qədəm qoymuşdur. Bunun nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonları Ermənistan hərbi qüvvələri tərəfindən işğal olunmuşdur. Müxtəlif beynəlxaq və regional təşkilatlarda. ikitərəfli və çoxtərəfli əməkdaşlıq çərçivəsində münaqişənin siyasi həllinə nail ola bilməyən Azərbaycan Respublikası, bu tarixi ədalətsizliyi hərbi-siyasi güc vasitəsilə həll etmək iradəsini ortaya qoyaraq, BMT TŞ dörd qətnaməsinə uyğun olaraq, 2020-ci il sentyabrın 27- dən etibarən Ermənistan tərəfindən işğal olunmuş Qarabağ bölgəsində "Sülhə məcbüretmə" ("Əks həmlə" əməliyyatı – M.A.) əməliyyatına başlamışdı. 2020-ci il sentyabrın 27- dən noyabrın 10-na kimi baş vermiş II Qarabağ müharibəsi nəticəsində Azərbaycan ordusu erməni işğalçılarını ağır məğlubiyyətə uğradaraq Dağlıq Qarabağ bölgəsini və ətraf rayonları düşmən işğalından azad etmiş və bölgədə yeni reallıqlar yaratmışdır. Ermənistanın acınacaqlı vəziyyətdən xilas etmək üçün Rusiyanın prosesə müdaxiləsi nəticəsində, 10 noyabr 2020-ci ildə Ermənistanın siyasi və hərbi məğlubiyyətini təsdiq edən kapitulyasiya aktı imzalanmışdır. 2021-ci ilin iyunun 15-də Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalamışlar.*

***Anahtar kelimeler:*** *Güney Kafkasya. Azerbaycan, Türkiye, "Şuşa Beyannamesi", barış ve güvenlik*

# The role of the "Shusha Declaration" in ensuring peace and security in the South Caucasus region

***Abstract***

*The Nagorno-Karabakh conflict has been one of the foci of ethnic conflicts inherited from the era of the Soviet empire. After Azerbaijan regained its state independence (October 18, 1991), this conflict grew and led to a war between Armenia and Azerbaijan and passed the stage of the Armenia-Azerbaijan-Nagorno-Karabakh conflict. As a result, the Nagorno-Karabakh region of Azerbaijan and surrounding regions were occupied by Armenian military forces. Unable to achieve a political solution to the conflict within the framework of bilateral and multilateral cooperation in various international and regional organizations, the Republic of Azerbaijan decided to resolve this historical injustice through military-political force. On September 27, 2020, Azerbaijan started the "Peace Enforcement" operation ("Counter Attack" operation - M.A) in the Karabakh region, which was occupied by Armenia at the time, in accordance with the four resolutions of the UN Security Council. As a result of the Second Karabakh War, which lasted from September 27 to November 10, 2020, the Azerbaijani army defeated the Armenian invaders and freed the Nagorno-Karabakh region and surrounding regions from enemy occupation and created new realities in the region. As a result of Russia's intervention in the process to save Armenia from a miserable situation, on November 10, 2020, an act of capitulation was signed confirming the political and military defeat of Armenia. On June 15, 2021, the President of the Republic of Azerbaijan Ilham Aliyev and the President of the Republic of Turkey Recep Tayyip Erdogan signed the "Shusha Declaration on Allied Relations between the Republic of Azerbaijan and the Republic of Turkey" in the city of Shusha.*

***Keyword:*** *South Caucasus, Azerbaijan, Turkey, "Shusha Declaration", peace and security*

## Giriş

Tarix boyu Cənubi Qafqaz regionu geosiyasi və strateji əhəmiyyətinə görə diqqət mərkəzində olmuşdur. Bu regionun əhəmiyyətini artıran əsas məqamlardan biri Xəzər hövzəsi enerji qaynaqlarının dünya bazarlarına nəql marşrutu üzərində yerləşməsidir. Həmçinin, çoxşaxəli Avro-Asiya nəqliyyat dəhlizinin bu bölgədən keçməsi Cənubi Qafqazın geosiyasi və geoiqtisadi dəyərini artırmaqdadır.

SSRİ-nin süqutundan sonra Cənubi Qafqazda müstəqillik qazanmış dövlətlərin etnik-siyasi qarşıdurmalara cəlb edilməsi regionun inkişafına ciddi maneələr yaratmış, nəticədə, region dünyanın qeyri-sabit və münaqişə mənbəyi olan bölgələrindən birinə çevrilmişdir.

Sovet imperiyası dövründən miras qalan etnik münaqişə ocaqlarından biri də Dağlıq Qarabağ konflikti olmuşdur. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra (18 oktyabr 1991-ci il) bu münaqişə daha da böyüyərək Ermənistanla Azərbaycan arasında müharibəyə səbəb olmuş, Ermənistan – Azərbaycan – Dağlıq Qarabağ münaqişəsi mərhələsinə qədəm qoymuşdur. Bunun nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonları Ermənistan hərbi qüvvələri tərəfindən işğal olunmuşdur.

30 ilə yaxın bir müddət ərzində beynəlxalq təşkilatların və aparıcı dövlətlərin səylərinə baxmayaraq bəzi hegemon dövlətlərin münaqişəyə ədalətsiz yanaşması və münaqişənin dondurulması yönündəki siyasəti nəticəsində bu problem həll olunmamışdır. Xüsusilə də BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993) və 874 (1993) və 884 saylı qətnamələrinin kağız üzərində qalması münaqişənin siyasi həllini minimuma endirmişdir.

Müxtəlif beynəlxaq və regional təşkilatlarda. ikitərəfli və çoxtərəfli əməkdaşlıq çərçivəsində münaqişənin siyasi həllinə nail ola bilməyən Azərbaycan Respublikası, bu tarixi ədalətsizliyi hərbi-siyasi güc vasitəsilə həll etmək iradəsini ortaya qoyaraq, BMT TŞ dörd qətnaməsinə uyğun olaraq, 2020-ci il sentyabrın 27- dən etibarən Ermənistan tərəfindən işğal olunmuş Qarabağ bölgəsində "Sülhə məcburetmə" ("Əks həmlə" əməliyyatı – M.A.) əməliyyatına başlamışdı.

2020-ci il sentyabrın 27- dən noyabrın 10-na kimi baş vermiş II Qarabağ müharibəsi nəticəsində Azərbaycan ordusu erməni işğalçılarını ağır məğlubiyyətə uğradaraq Dağlıq Qarabağ bölgəsini və ətraf rayonları düşmən işğalından azad etmiş və bölgədə yeni reallıqlar yaratmışdır. Ermənistanın acınacaqlı vəziyyətdən xilas etmək üçün Rusiyanın prosesə müdaxiləsi nəticəsində, 10 noyabr 2020-ci ildə Ermənistanın siyasi və hərbi məğlubiyyətini təsdiq edən kapitulyasiya aktı imzalanmışdır. "10 noyabr Bəyannamə"si adı ilə tarixə düşən bu saziş Azərbaycanın döyüş meydanında əldə etdiyi uğurları siyasi masada təsdiq etmiş, Azərbaycanın işğal altında olan Kəlbəcər, Laçın, Ağdam rayonlarını döyüşsüz geri qaytarılmışdır.

2021-ci ilin iyunun 15-də Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalamışlar.

"Bəyannamə"nin Preambula hissəsində Tərəflər, "İki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bəyan edərək" bu müqaviləsinin siyasi əhəmiyyətini önə çəkmişlər.

Müqvilənin digər bir bölməsində isə qeyd olunurdu ki, Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər".

"Bəyannamə"də, hər iki dövlətin ərazi bütövlüyü və suverenliyinin toxunulmazlığı, II Qarabağ savaşının doğurduğu geosiyasi reallıqlar, Rusiya-Türkiyə Birgə Mərkəzinin əhəmiyyəti, beynəlxalq və regional təşkilatlarda qarşılığlı dəstək, Qarabağın bərpası prosesi, minalanmış ərazilərin təmizlənməsi, xüsusilə də Azərbaycanın Qərb rayonlarını Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizinin açılması kimi məsələlərdə birgə əməkdaşlıq xüsusi qeyd olunur.

Bu müqavilənin hərbi – siyasi və təhlükəsizlik məsələlərinə dair I, II, və III maddələri xüsusi əhəmiyyət kəsb edir. Bu maddələrdə, "tərəflərin bir-birinin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin olunmasında sıx əməkdaşlıq, tərəflərin ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin toxunulmazlığının qorunmasında görülə biləcək birgə tədbirlər, tərəflərdən hər hansı birinin hərbi təcavüzə məruz qaldığı zaman bir-birinə qarşılıqlı yardım göstərilməsi və bu məqsədlə, hər iki dövlətin silahlı qüvvələri arasındakı əlaqələrin daha da gücləndirilməsində sıx əməkdaşlıq edəcəyi bildirilir".

"Şuşa Bəyannaməsi" Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunmasında, türk dünyasının inteqrasiya prosesində, xüsusilə də Azərbaycan-Türkiyə münasibətlərinin daha da inkişaf etdirilməsinə böyük əhəmiyyətə malikdir.

## 1. Müasir dövrdə böyük dövlətlərin Güney Qafqaz siyasəti

Güney Qafqaz geosiyasi mövqeyinə görə çox həssas bir yerdə yerləşir. Bu bölgənin əhəmiyyətini artıran əsas amillərdən biri də böyük dövlətlərin maraq dairəsində olan Xəzər hövzəsi enerji qaynaqlarının dünya bazarlarına nəql marşrutu üzərində yerləşməsidir. Bu xüsusiyyəti ilə bölgə qlobal miqyasda xüsusi əhəmiyyət kəsb edir. Həmçinin, Güney Qafqaz regionu coğrafi mövqeyindən irəli gələn geosiyasi dəyərə görə, Rusiyanın Aralıq dənizi, Yaxın Şərq və Afrika regionlarına nəzarət etmək üçün bağlantı nöqtəsi roluna malikdir.

İctimai-siyasi xadim Əhməd Davudoğlu Güney Qafqaz bölgəsinin strateji əhəmiyyətini bu şəkildə dəyərləndirmişdir: "Bölgənin beynəlxalq mövqeyinin üç əsas xarakterik xüsusiyyəti

vardır. İlk növbədə regionun mürəkkəb coğrafi relyefə malik olması bölgənin siyasi və etnik mədəni mənzərəsini şərtləndirən ən mühüm xüsusiyyətlərdəndir. Bu amil bölgədə yaşayan xalqların tarix boyu işğallardan qorunaraq mədəniyyətlərini qoruyub saxlamağa imkan yaratmışdır. Digər amil isə, regionun böyük dövlətlər arasında bufer zona rolunu oynamasıdır. Ərəblər, ruslar və türklər həmişə bu bölgə ilə yaxından maraqlanmış və bu səbəbdən də bölgə zaman-zaman müxtəlif güclərin nəzarəti altında olmuşdur. Bölgənin geoiqtisadi anlamda digər bir xüsusiyyəti də ticarət və nəqliyyatda böyük bir körpü rolunu oynamasıdır" (Davutoğlu, 2003).

Soyuq müharibə illərində Sovet imperiyası Güney Qafqaz bölgəsində əsas güc və yeganə hökmran idi. Lakin bu imperiyanın süqutundan sonra regionda siyasi tarazlıq dəyişdi və Sovet İttifaqının bölgə üzərində tək hegemonluğuna son qoyuldu. 1991-ci ildə Sovet imperiyasının süqutu ilə Cənubi Qafqaz ölkələri (Azərbaycan, Gürcüstan, Ermənistan) müstəqilliklərini elan etdilər. SSRİ-nin dağılmasından sonra bölgədə yaranan nüfuz boşluğunu doldurmaq üçün qlobal və regional güclər bu gün də davam edən böyük bir mübarizəyə başladılar.

Müasir dövrdə bu bölgə regional və qlobal güclərin geosiyasi, geoiqtisadi və strateji maraqları naminə mübarizə apardıqları çoxşaxəli və dinamik güc mərkəzinə çevrilmişdir (Öztürk, 2003). Müstəqilliyini elan etmiş üç Cənubi Qafqaz Respublikasından Azərbaycan və Gürcüstan xarici siyasətlərini daha çox ABŞ və Avropa İttifaqı istiqamətində formalaşdırmış, Ermənistan isə özünəməxsus xarici siyasət qura bilməyərək Rusiya hegemonluğunun təsiri altında öz müstəqilliyini qoruyub saxlamaq qərarına gəlmişdir. Bəzi dövrlərdə isə Ermənistan uğursuz cəhdlər edərək Rusiyanın əleyhinə Qərbyönlü siyasət yürütməyə cəhd etmişdir.

Cənubi Qafqaz ətrafında cərəyan edən hadisələrin bölgə uğrunda gedən mübarizənin tərkib hissəsi olduğunu vurğulayan siyasi tədqiqatçı Əhməd Sapmaz qeyd edir ki, "Qafqaz, Balkanlar-Qara dəniz-Xəzər dənizi-Mərkəzi Asiya və Rusiya Federasiyası-Yaxın Şərq və Türkiyə-Aralıq dənizi oxlarında baş verən proseslərdən ciddi şəkildə təsirlənir. Qara dənizin isinən, Qafqaz və Yaxın Şərqin durulmayan, Mərkəzi Asiyanın isə Çin və Rusiyanın diqtəsi ilə Şanxay Əməkdaşlıq Təşkilatının nəzarətində formalaşan geopolitik düzəni Qafqazın geosiyasətinə ciddi şəkildə təsir edir" (Sapmas, 2006).

Cənubi Qafqaz bölgəsində mövcud olan etnik-mədəni rəngarənglik, əsas etibarilə müstəqillik dövründən başlayaraq regiondaxili etnik münaqişələrə və xaosa səbəb olmuşdur. Problemin əsas səbəblərindən biri də SSRİ-nin "arxa bağça"sı hesab etdiyi Qafqazda əsrlər boyu davam etdirdiyi "parçala, hökm sür" siyasətinə uyğun olaraq çəkdiyi süni sərhədlərin

bölgədə siyasi qeyri-bərabərliyə və ədalətsizliyə təkan verməsi olmuşdur. Xüsusilə də Rusiyanın bölgədəki etnik, dini, mədəni və tarixi amillərə məhəl qoymadan yaratdığı siyasi xəritəsi Qafqazda qeyri-sabitliyin ən mühüm səbəblərindən biri idi.

SSRİ-nin süqutundan sonra Cənubi Qafqazda müstəqilliklərini elan etmiş dövlətlərin demokratikləşmə prosesində qarşıya çıxan problemlərinin üzərinə etnik münaqişələrin əlavə olunması, bölgənin lazımi səviyyədə inkişafına ciddi maneələr yaratmış, mövcud sosial-iqtisadi strukturlaşmanın formalaşmasına əngəl olmuş, nəticədə bölgə dünyanın ən qeyri-sabit və münaqişə mənbəyi olan bölgələrindən birinə çevrilmişdir.

Bu gün Cənubi Qafqazda və Xəzər hövzəsində ABŞ, Rusiya, Aİ kimi böyük siyasi güclərin maraqları toqquşur. Dünyanın zirvəsi hesab edilən Avrasiyanı öz nəzarətinə götürməklə "Dünya hökmranlığı" fəlsəfəsini reallaşdırmağa çalışan ABŞ, Avrasiyanın ürəyi olan Qafqaz regionuna maksimum önəm verməkdədir. Digər tərəfdən, hələ də regionu özünün "arxa bağçası" hesab edən Rusiya Cənubi Qafqazda nüfuzunu qorumaq və enerji yollarını nəzarətdə saxlamaq istəyini açıq şəkildə biruzə verməkdədir.

Eyni zamanda Avropa İttifaqının regiona və regionun enerji resurslarına marağı günü-gündən artır. Xüsusilə ABŞ və Rusiya Federasiyası üçün rəqabət zonaları əsasən Cənubi Qafqaz və Xəzər hövzəsidir. ABŞ regionda demokratiya, insan haqları və terrorla mübarizə adı altında mübarizə apararakən, Rusiya bölgədə köhnə üsullardan (etnik münaqişələrdən istifadə etməklə və.s. M.A.) istifadə etməyə üstünlük verir.

Cənubi Qafqaz Türkiyə üçün də çox önəm daşıyan bölgələrdən biridir. Bu region Şərq-Qərb və Şimal-Cənub arasında tranzit rolunu oynamaqla strateji əhəmiyyətə malikdir. Cənubi Qafqazda sülh və sabitlik Türkiyənin təhlükəsizliyi üçün xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda Cənubi Qafqaz Türkiyənin Orta Asiyaya açılan qapısı kimi olduqüca önəmlidir (Bal, 2004). 2000-ci illərdə gündəmə gələn enerji təhlükəsizliyi konsepsiyası və ABŞ-da törədilən 2021-ci il 11 sentyabr terror hadisələrindən sonra Mərkəzi Asiya-Qafqaz oxunda kəskinləşən qlobal güc rəqabəti regionu beynəlxalq siyasət meydanında ön plana çıxarmışdır. Başda ABŞ, Aİ və Rusiya olmaqla qlobal güclərin regional rəqabətinə, həmçinin Türkiyə və İran kimi regional güclərin siyasi qarşıdurmasına səhnə olan region, həlli çətin olan daxili problemlər ucbatından mürəkkəb və dəyişkən siyasi təbəddülatlar girdabına daxil olmuşdur (Andican, 2008). Cənubi Qafqaz regionuna ciddi önəm verən Türkiyə, bölgədə etnik, mədəni və tarixi bağlılığına görə ilk olaraq 1991-ci il noyabrın 9-da Azərbaycanın müstəqilliyini tanımış, həmçinin 16 dekabr 1991-ci ildə Gürcüstan və Ermənistanın müstəqilliyini də tanıdığını elan etmişdir. Soyuq müharibədən sonra yeni bir diplomatik açılım mərhələsinə qədəm qoyan

Türkiyə, Orta Asiya və Qafqazda meydana çıxan yeni konyukturada fəal rol almağa başlamış, uzun illər SSRİ-nin müstəmləkəsi kimi yaşamış Türk Cümhuriyyətləri ilə sıx əlaqələr yaratmağa çalışmışdır.

Türkiyənin Cənubi Qafqaz bölgəsində yürütdüyü siyasətin əsas istiqamətlərini anlamaq üçün ilk növbədə ölkənin ümumilikdə regiona necə baxdığına və hansı əsaslarla siyasət formalaşdırmağa çalışdığına diqqət yetirmək lazımdır. Əvvəla, Türkiyə ilk dövrdən bütün Qafqaz ölkələrinin müstəqilliyini, siyasi sabitliyini və ərazi bütövlüyünü dəstəkləyən siyasi xətt yürütmüşdür. Bu siyasətin səbəbini Cənubi Qafqaz dövlətlərinin Türkiyə üçün strateji əhəmiyyəti, Türkiyənin bölgəyə yönəlik köklü xarici siyasət prinsipi, xarici güclərin regiona yönəlik aktiv siyasətinin doğurduğu narahatçılıq, xüsusilə də bölgədə qeyri-sabitlik yaranarsa bunun asanlıqla Türkiyə ərazisinə keçə biləcəyindən narahatlıq duyması kimi faktorlarla izah etmək olar (Aydın, 2012). Türkiyənin Cənubi Qafqaz ölkələrinin ərazi bütövlüyü və suverenliyinə verdiyi dəstək soyuq müharibədən sonra Rusiyanın bölgədəki təsirini azaltmaq cəhdlərindən irəli gəlirdi. Çünki region dövlətləri öz müstəqilliklərini və siyasi sabitliklərini qoruyub saxlaya bildikləri halda, Rusiyanın Türkiyə ilə qonşu olan bu ölkələrə təsir imkanları azalacaqdı. Bu səbəbdən Qafqaz ölkələri öz müstəqilliklərini elan etdiyi zaman Türkiyə bu ölkələrin müstəqilliyini dərhal tanımışdır. Yalnız Ermənistan siyasi dairələrində iki ölkə sərhədi ilə bağlı yersiz torpaq iddialarına söykənən müzakirələrin getməsi və 1915-ci il hadisələri ilə bağlı Ermənistanın yersiz davranışları, Türkiyəni bu dövlətlə diplomatik əlaqələr qurmamağa vadar etmişdir. Zaman keçdikcə iki ölkə arasında fikir ayrılığı yaradan məsələlərə Dağlıq Qarabağ münaqişəsi də əlavə olunmuşdu (Aydın, 2002). İlk növbədə Cənubi Qafqaz bölgəsi Türkiyə üçün əhəmiyyətli təbii qaz və neft ehtiyatlarına malik qonşu ərazidir. Təxminən dünya neft və təbii qaz ehtiyatlarının 12%-ni təşkil edən Xəzər hövzəsi 1970-ci illərdə baş verən dünya enerji böhranının təkrarlanmasının qarşısını ala biləcək mühüm alternativ enerji hövzəsinə çevrilmişdir (http://www.bp.com/productlanding.do?categoryId).

Təkcə Azərbaycan qazı və neftini deyil, həm də Qazaxıstan neftini və Türkmənistan qazını özündə birləşdirən Xəzər hövzəsi soyuq müharibədən sonra Türkiyənin xarici siyasətinin əsas maraq dairəsində olan bölgələrdən birinə çevrilmişdir. Digər tərəfdən, Türkiyə Xəzərin enerji ehtiyatlarının dünya bazarlarına nəqlində əsas tranzit ölkəyə çevrilmək istəyində Rusiya ilə rəqabət aparır.

Türkiyə, Cənubi Qafqazda region dövlətləri, xüsusilə də Azərbaycanla siyasi və iqtisadi əməkdaşlıqla bərabər, hərbi sahədə də əlaqələrin qurulmasına böyük əhəmiyyət verir.

Azərbaycan Respublikası NATO-nun ən güclü ordularından birinə malik Türkiyə ilə həm NATO çərçivəsində, həm də ikitərəfli hərbi əlaqələri inkişaf etdirir. NATO ilə əlaqələrin əhəmiyyəti Türkiyə üçün də mühüm xarici və təhlükəsizlik siyasəti ölçüsüdür. Türkiyə Mərkəzi Asiya və Qafqaz dövlətlərinin "Avroatlantik Əməkdaşlıq Şurası"nda və "Sülh Naminə Tərəfdaşlıq Proqramı"nda iştirakını və fəaliyyətini dəstəkləyir (http://www.byegm.gov.tr/referenses/for-pol-98.htm). İki ölkənin müxtəlif sahələrdə, eləcə də təhlükəsizlik sahəsində milli maraqlarının üst-üstə düşməsi Azərbaycan ilə Türkiyə arasında əlaqələrin möhkəmlənməsində və daha da inkişaf etdirilməsində mühüm rol oynayır. Türkiyə bu gün də Cənubi Qafqazın ən mühüm və aktiv geosiyasi aktorlarından biridir və regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə çalışır. Həmçinin Azərbaycan Türkiyənin Cənubi Qafqazda təbii müttəfiqidir. Azərbaycan-Türkiyə münasibətlərində iqtisadi və hərbi-siyasi amillərlə yanaşı, ortaq dil, din, mədəni dəyərlər də olduqca böyük rol oynayır və əlaqələrin daha möhkəm təməllər üzərində qurulmasına imkan yaradır (Batiaşvili). Azərbaycan və Türkiyə arasında hərbi sahədə əməkdaşlıq təkcə Azərbaycan Silahlı Qüvvələrinin güclənməsi deyil, həm də regionda sülh və təhlükəsizliyin bərqərar olması baxımından böyük əhəmiyyət kəsb edir. İki qardaş ölkə arasında ikitərəfli hərbi əməkdaşlığın inkişafına dair imzalanmış müqavilələrə uyğun olaraq, Türkiyə müdafiə sənayesinin inkişafı və hərbi ekspertlərin hazırlanmasında Azərbaycana yardım edir (Askerzade, 2009). Türkiyənin Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasında qarşılaşdığı ən ciddi problemlərdən biri bölgədə mövcud olan etnik münaqişələr olmuşdur. Türkiyənin Cənubi Qafqazda mövcud olan münaqişə ocaqlarına ümumi siyasi baxışı əsasən dövlətlərin ərazi bütövlüyünün qorunması və münaqişələrin beynəlxalq hüquq normaları çərçivəsində həll olunması prinsipinə əsaslanmışdır.

Bu baxımdan Türkiyə istər beynəlxalq və regional təşkilatlar səviyyəsində, istərsə də ikitərəfli münasibətlər formatında Gürcüstanın ərazi bütövlüyünü tanımış, Rusiyanın Gürcüstanla təxminən on günlük müharibədən sonra 2008-ci ildə Abxaziya və Cənubi Osetiyanı işğal etməsinə qarşı çıxmışdır. Türkiyənin bu istiqamətdə tutduğu mövqe iki ölkə arasındakı müsbət münasibətlərə ciddi təsir göstərmişdir (Güler, 2021). Uzun illər davam edən Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsində Türkiyə istər beynəlxalq müstəvidə, istərsə də regional siyasətdə həmişə Azərbaycanın ədalətli mövqeyini müdafiə etmiş, birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasında hərbi-siyasi dəstəyini əsirgəməmişdir.

2020-ci ildə Türkiyənin region dövlətləri ilə münasibətlərinə nəzər saldıqda görünür ki, Cənubi Qafqazda diqqəti çəkən əsas məsələlər, erməni təxribatı nəticəsində baş verən 12 iyul

Tovuz münaqişəsi və 27 sentyabr-10 noyabr tarixlərində baş verən İkinci Qarabağ müharibəsidir. Bu hərbi münaqişələr zamanı Türkiyənin ortaya qoyduğu mövqe, xüsusilə də II Qarabağ müharibəsi zamanı yeritdiyi siyasət, regionda baş verən proseslərdə olduqca əhəmiyyət kəsb edirdi (Güler, 2021).

İlk növbədə Tovuz döyüşləri regionda siyasi tarazlığın pozulmasına səbəb oldu. Çünki Tovuz rayonu Azərbaycanın bütün enerji və logistika xətlərinin Gürcüstandan keçdiyi, Türkiyə və Avropaya açılan strateji ərazisidir. Bu bölgəni artilleriya ilə hədəfə alan erməni hərbi qüvvələri münaqişə sərhədindən uzaqda yerləşən mülki yaşayış məntəqələrini atəşə tutmaqla, Azərbaycanı hərbi-siyasi təxribata çəkmək və regionda qeyri-sabit vəziyyət yaratmaq məqsədi güdürdülər. Ermənistanın hərbi-siyasi xuntasının Qarabağ bölgəsində apardığı bu aqressiv və revanşist siyasəti bir tərəfdən Azərbaycana, digər tərəfdən Xəzərin enerji təchizatının təhlükəsizliyində böyük rol oynayan Türkiyəyə qarşı ciddi təhlükə yaradırdı. Digər tərəfdən bu hadisə tranzit ölkə olan Gürcüstanın iqtisadi maraqlarına və enerji təhlükəsizliyinə tamamilə zidd idi. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, TANAP boru kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu kimi bütün nəqliyyat dəhlizinin bu ölkədən keçməsi Gürcüstanın bölgədəki geosiyasi vəziyyətinə ciddi təhlükə yaratmaqda idi (Güler, 2021).

Ermənistanın hərbi-siyasi xuntasının Cənubi Qafqazda siyasi sabitliyə və geosiyasi balansın pozulmasına səbəb olan bu qeyri-konstruktiv və faşist davranışı, faktiki olaraq Türkiyənin Qafqaz siyasətində dərin qırılmaya səbəb oldu və Türkiyə hakimiyyəti taktiki addımlar atmaq məcburiyyətində qaldı.

Suriya və Liviya bölgəsində həyata keçirilən Türkiyənin proaktiv siyasəti Qarabağ münaqişəsində də presedent kimi qəbul edilmiş və real olaraq mühüm nəticələr vermişdir. İyul ayının sonu və avqustun əvvəllərində Türkiyə-Azərbaycan hərbi birləşmələrinin Azərbaycanda birgə təlimlər keçirməsi, ardınca Türkiyənin müdafiə sənayesinin istehsalı olan "Bayraktar TB2 SİHA"ların, həmçinin digər sursat, raket və elektron döyüş sistemlərinin Azərbaycana satışı və bu məhsulların İkinci Qarabağ Müharibəsinin əvvəlindən sonuna kimi döyüş əməliyyatlarında fəal şəkildə istifadə olunaraq Ermənistan üzərində ciddi üstünlük qazanması, Türkiyənin bölgədə aparıcı aktor olmasının əsas göstəricisi idi (Güler, 2021).

2020-ci il sentyabrın 27- dən noyabrın 10-na kimi baş vermiş II Qarabağ Müharibəsi nəticəsində Azərbaycanın rəşadətli ordusu erməni işğalçılarını ağır məğlubiyyətə uğradaraq Dağlıq Qarabağ bölgəsini və ətraf rayonları düşmən işğalından azad etmiş və bölgədə yeni reallıqlar yaratmışdır. Azərbaycan ordusu döyüş meydanında əldə etdiyi mütləq üstünlük

nəticəsində illərdir davam edən status-kvonu dəyişərək Azərbaycanın işğal altında olan bütün torpaqlarını azad etmiş və erməni işğalına son qoymuşdur. Ermənistanı acınacaqlı vəziyyətdən xilas etmək üçün Rusiyanın prosesə müdaxiləsi və imzalanan üçtərəfli razılaşma ilə Ermənistanın hərbi-siyasi rejimi hərbi meydanda olduğu kimi diplomatik müstəvidə də ağır zərbə almışdır. “10 noyabr 2020-ci il Bəyannaməsi” adı ilə tarixə düşən bu saziş Ermənistanın siyasi və hərbi məğlubiyyətini təsdiq edən kapitulyasiya aktı olmuşdur. 10 noyabr Bəyannaməsi ilə Azərbaycan döyüş meydanında əldə etdiyi bütün hərbi uğurları diplomatiya masasında qoruyub saxlamış və Kəlbəcər, Laçın, Ağdam rayonlarını da döyüşsüz olaraq geri almışdı.

Ermənistanın imzaladığı kapitulyasiya aktı nəticəsində Azərbaycanın Qarabağ bölgəsində işğal altında olan torpaqların 80 faizə yaxını azad edilmiş, erməni əsgərləri azad olunmuş ərazilərdən geri çəkilmək məcburiyyətində qalmışdır. Həmçinin razılaşmada Zəngəzur dəhlizi vasitəsilə Naxçıvan Muxta Respublikası ilə Azərbaycanın qərb rayonları arasında nəqliyyat xəttinin açılmasının təsbit olunması mühüm regional nəticələri olan bir hadisə kimi xarakterizə olunmaqdadır. Digər tərəfdən Dağlıq Qarabağın statusunun danışıqlar masasından götürlməsi Azərbaycanın geosiyasi qələbəsinin ən ümdə məsələlərindən biri olmuşdur (Güler, 2021).

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqaz geosiyasətinin tərkib hissəsi olan Türkiyə bir tərəfdən Azərbaycanın qələbəsində oynadığı rola, digər tərəfdən müharibədən sonra bölgədə qazandığı siyasi təsirini qoruyub saxlamaqla Qafqaz rəqabətində mühüm mövqe qazanmış oldu. Atəşkəsdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müraciəti əsasında Türkiyə Silahlı Qüvvələrinin Ağdamda yaradılan monitorinq mərkəzində iştirak etməsi Türkiyənin mövqeyinin real göstəricisi idi. Eyni zamanda, iki ölkə arasında yüksək səviyyəli səfərlər əvvəlki illərlə müqayisədə xeyli artdı. “Bir millət, iki dövlət” anlayışı ilə davam edən ikitərəfli münasibətlərin 2020-ci ildə konkret nəticə verdiyini, “bir millət, bir dövlət” anlayışı mərhələsinə keçərək inkişaf etməyə başladığını görmək olar (Rəhimov, 2021).

## 2. Şuşa Bəyannaməsi” Güney Qafqaz bölgəsində sülühün və təhlükəsizliyin təminatçısıdır

2021-ci ilin iyun ayının 15-də Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin imzalanma mərasimi keçirildi.

2022-ci ilin 1 fevral tarixində Azərbaycan Respublikasının Milli Məclisi “Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq”

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni təsdiq etdi (https://meclis.gov.az/documents/478-VIQ.pdf).

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsi 3 fevral 2022-ci ildə isə Türkiyə Böyük Millət Məclisi tərəfindən ratfikasiya olundu (https://azertag.az/xeber/Turkiye).

"Şuşa Bəyannaməsi"nin imzalanması ilə, 2010-cu il avqustun 16-da imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə" daha da inkişaf etdirilərək, münasibətlər strateji tərəfdaşlıqdan müttəfiqlik münasibətləri səviyyəsinə yüksəlmişdir.

"Bəyannamə"nin Preambula hissəsində Tərəflər, "İki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bəyan edərək" bu müqaviləsinin siyasi əhəmiyyətini önə çəkmişdir (Böyük Qayıdış, 2021).

"Şuşa Bəyannaməsin"də "Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının "Ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyi" xüsusi olaraq vurğulanmışdır (Zəfər yolu, 2021).

Müqvilənin digər bir bölməsində isə qeyd olunur ki, "Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər..." (Böyük Qayıdış, 2021).

"Bəyannamə"də, hər iki dövlətin ərazi bütövlüyü və suverenliyinin toxunulmazlığı, II Qarabağ savaşının doğurduğu geosiyasi reallıqlar, Rusiya-Türkiyə Birgə Mərkəzinin əhəmiyyəti, beynəlxalq və regional təşkilatlarda qarşılığlı dəstək, Qarabağın bərpası prosesi, minalanmış ərazilərin təmizlənməsi kimi məsələlərdə birgə əməkdaşlıq xüsusi qeyd olunur (Böyük Qayıdış, 2021).

"Bəyannamə"də yer alan əsas praktiki məsələlərdən biri də silahlı qüvvələrin birgə fəaliyyətidir. Bununla bağlı qeyd edilir ki, "Tərəflər iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səy göstərməyə davam edəcəklər. Müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını,

müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər. Milli və beynəlxalq öhdəliklərini nəzərə almaqla dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq edəcək və qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəklər, sahib olduqları silah və sursatla təchiz edəcək, onların istehsal texnologiyalarını qarşılıqlı şəkildə təşviq edəcək və hazırda onların ölkələrində mövcud olmayan istehsal sahələrinin yaradılmasını, birgə tədqiqat və istehsalat işlərinin həyata keçirilməsini, iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsini dəstəkləyəcəklər" (Böyük Qayıdış, 2021).

"Bəyannamə"də hərbi yardım barədə müddəalar müqavilənin hərbi – siyasi və təhlükəsizlik məsələlərinə dair 1-ci, 2-ci və 3-cü maddələrində öz əksini tapmışdır. Maddə 1-də göstərilir ki, tərəflər qonşu və qardaş dövlətlər olaraq bir-birinin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin olunmasında və qorunmasında bir-biri ilə sıx əməkdaşlıq edəcəklər. Tərəflərin hər hansı biri ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin toxunulmazlığının təhdid edildiyi və ya təhlükə altında olduğu qənaətində olduqda, Tərəflər bu təhdid və təhlükələrin aradan qaldırılması istiqamətində görülə biləcək tədbirlər barədə təxirəsalınmadan məsləhətləşmələr aparacaqlar (Rəşid, 2021).

"Bəyannamə"nin 2-ci maddədə qeyd olunur ki, "Tərəflərdən biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldıqda, Tərəflər BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və ya kollektiv özünü müdafiə hüququnun həyata keçirilməsi üçün hərbi imkan və qüdrətlərindən istifadə etmək də daxil olmaqla, mövcud imkanları çərçivəsində bütün zəruri tədbirlərin görülməsi məqsədi ilə bir-birinə qarşılıqlı yardım göstərəcəkləri barədə razılığa gəlirlər. Bu yardımın forması və həcmi təxirəsalınmadan Tərəflər arasında razılaşdırılacaqdır". Müqavilənin 3- cü maddəsində 2-ci maddə rəhbər tutularaq, "hər iki dövlətin bir-birinə qarşılıqlı yardım göstərməsi üçün səylərin birləşdirilməsi və razılaşdırılmış tədbirlərin icrası məqsədi ilə müdafiə və hərbi-texniki sahədə siyasətlərinin həyata keçirilməsində və silahlı qüvvələri arasındakı əlaqələrin daha da gücləndirilməsində sıx əməkdaşlıq edəcəyi bildirilir" (Rəşid, 2021).

"Şuşa Bəyannaməsi"ndə eyni zamanda Zəngəzur dəhlizi və Naxçıvan–Qars dəmir yolunun inşasının sürətləndirilməsi yolu ilə iki ölkə arasında nəqliyyat - kommunikasiya əlaqələrinin intensivləşdirilməsi də nəzərdə tutulur. Beləliklə, Şərq-Qərb Mərkəzi Dəhlizinin rəqabət qabiliyyətini artırmaq üçün əməkdaşlıq və Cənub Qaz Dəhlizini həyata keçirmək mümkün olacaqdır. Bununla bağlı müddəada, "Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər (Zəfər yolu, 2021).

"Bəyannamə"də yer alan ideoloji istiqamətlərdən biri də Ermənistanın uzun illər boyu Türkiyəyə qarşı irəli sürdüyü əsassız "soyqırım" iddiaları və bu saxta iddialara qarşı birgə mübarizədir. Bu müddəada deyilir: "Tərəflər Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğunu vurğulayaraq bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərini qətiyyətlə dəstəkləyirlər" (Zəfər yolu, 2021).

Tərəflər həmçinin qeyd edirlər ki, aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklər və Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər (Zəfər yolu, 2021).

Tərəflər, həmçinin "Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türksoy və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər"ini bir daha vurğulayırlar (Zəfər yolu, 2021).

"Şuşa Bəyannaməsi"nin əhəmiyyətli tərəflərindən biri də ondan ibarətdir ki, bu bəyannamədə, Türkiyə ilə Azərbaycan arasında əlaqələri daha da inkişaf etdirmək, xalqlar arasında inteqrasiyanı, sürətləndirmək üçün vətəndaşların sərbəst hərəkəti dəstəklənir, həmçinin elm, təhsil, humanitar əməkdaşlıq məsələləri önə çəkilir . Qeyd edilir ki, "Tərəflər bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisinə şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında əldə edilən razılaşmadan məmnunluq ifadə edirlər və həmin razılaşmanın xalqlarımız arasında

yaxınlıq və insanlar arasında əlaqələr baxımından müstəsna əhəmiyyətini qeyd edərək, bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisində yaşamaq hüququ əldə etmələrini qarşılılıq prinsipinə uyğun olaraq asanlaşdırmaq üçün müvafiq tədbirlər görülməsini təqdir edirlər. Tərəflər lazımi dövlət dəstəyini təmin edərək xalqları arasında müştərək dəyərlərə söykənən sıx əlaqələri humanitar, sosial müdafiə, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində daha da inkişaf etdirəcək və dərinləşdirəcəklər. Bu məqsədlə iki ölkənin aidiyyəti qurumları tərəfindən birgə davamlı fəaliyyətlər həyata keçiriləcəkdir (Zəfər yolu, 2021).

Xüsusi olaraq qeyd etmək lazımdır ki, "Şuşa Bəyannaməsi"ndə qəbul edilən məsələlər azadlıq, ədalət, demokratiya, dözümlülük, həmrəylik, əməkdaşlıq, plüralizm, mədəni rəngarənglik, xalqlararası münasibətlərdə bütün səviyyələrdə dialoq və qarşılıqlı anlaşma prinsiplərinə əsaslanan müxtəlif dəyər mexanizmlərinin, ənənələrin əlaqələndirilməsi və sülh şəraiti yaradan əlverişli milli və beynəlxalq mühitə həvəsləndirilməsi deməkdir (Məmmədov, 2022). Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərə əhəmiyyətli dərəcədə təkan verəcək "Şuşa Bəyannaməsi" regional və qlobal təhlükəsizliyə də zəmin yaradır. Bu, həm də Azərbaycanın yeni dünya düzəninə, qlobal geosiyasi sistemə inteqrasiyasının göstəricisidir. Eyni zamanda bu "Bəyannamə" ilə Türkiyənin Cənubi Qafqazda siyasi güc tarazlığı yaratdığını və regional güc mərkəzindən qlobal güc mərkəzi yaratmaq istiqamətində mühüm addım atdığını deyə bilərik.

## Sonuç

Cənubi Qafqaz bölgəsində istər geosiyasi, istərsə də geoiqtisadi baxımdan aparıcı dövlət Azərbaycan Respublikasıdır. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Sovet imperiyasından miras qalan etnik münaqişlərin qurbanı olmuş, bu dövrdən etibarən Dağlıq Qarabağ münaqişəsi böyüyərək Ermənistan – Azərbaycan – Dağlıq Qarabağ müharibəsi mərhələsinə qədəm qoymuşdur. Bunun nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonları Ermənistan hərbi qüvvələri tərəfindən işğal olunmuşdur. Uzun illər ərzində beynəlxalq təşkilatların və aparıcı dövlətlərin səylərinə baxmayaraq bəzi hegemon dövlətlərin münaqişəyə ədalətsiz yanaşması və münaqişənin dondurulması yönündəki siyasəti nəticəsində bu problem həll olunmamışdır. Beynəlxalq səviyyədə münaqişənin siyasi həllinə nail ola bilməyən Azərbaycan Respublikası, bu tarixi ədalətsizliyi hərbi-siyasi güc vasitəsilə həll etmək iradəsini ortaya qoyaraq, BMT TŞ dörd qətnaməsinə uyğun olaraq, 2020-ci il sentyabrın 27-dən etibarən Ermənistan tərəfindən işğal olunmuş Qarabağ bölgəsində "Sülhə məcburetmə" əməliyyatına başlamışdı. 2020-ci il sentyabrın 27- dən noyabrın 10-na kimi baş vermiş II Qarabağ müharibəsi nəticəsində Azərbaycan ordusu erməni işğalçılarını ağır məğlubiyyətə uğradaraq Dağlıq Qarabağ bölgəsini və ətraf rayonları düşmən işğalından azad etmiş və 10 noyabr 2020-ci ildə Ermənistanın siyasi və hərbi məğlubiyyətini təsdiq edən kapitulyasiya aktı imzalanmışdır. 2021-ci ilin iyunun 15-də Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalanması Cənubi Qafqazda yeni bir geosiyasi mərhələnin əsasını qoymuşdur. Eyni zamanda bu "Bəyannamə" ilə Türkiyə_Azərbaycan münasibətləri strateji tərəfdaşlıq səviyyəsindən müttəfiqlik müstəvisinə qədəm qoymuşdur. "Şuşa Bəyannaməsi" Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunmasında, Avro-Asiya nəqliyyat dəhlizinin inkişafında, türk dünyasının inteqrasiya prosesində, xüsusilə də Azərbaycan-Türkiyə münasibətlərinin daha da inkişaf etdirilməsinə böyük əhəmiyyətə malikdir.

## Kaynaklar

Andican, A. (2008). Kafkasya ile İlişkiler. *Türk Dış Politikası 1919-2008,* Barış Platin Yayınları.

Askerzade, A. (2009). NATO Çerçevesinde Azerbaycan-Türkiye Askerî İşbirliği ve Bölgesel Güvenlik Sorunları. *Karadeniz Araştırmaları, 20,* Kış, s. 5.

Aydın, M. (2012). Kafkasya'da Türk dış ve güvenlik politikalarının değişen dinamikleri. *Kafkasya'da Değişim Dönüşüm (Avrasya Üçlemesi; III),* Nobel Yayınları.

Aydın. M. (2002). 1990–2001 Kafkasya ve Orta Asya'yla İlişkiler. Baskın Oran (der.), *Türk Dış Politikası, Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar,* İletişim Yayıncılık.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə AR MM-nin Qanunu. https://meclis.gov.az/documents/478-VIQ.pdf.

Bal, İ. (2004). Türkiye-Ermenistan İlişkileri. *21. Yüzyılda Türk Dış Politikası,* 2. Baskı, Nobel Yayınları.

Batiaşvili, Z. Teoriya Khantingtona i turetsko-kavkazskiye otnosheniya. *Tsentralnaya Aziya i Kavkaz, №2* (26), 106.

*Böyük Qayıdış*. (2021). I kitab, Şərq-Qərb.

BP, Statistical Review of World Energy 2010, http://www.bp.com/productlanding.do?categoryId .

Davutoğlu, A. (2003). *Stratejik Derinlik*, Küre Yayınları.

Foregin Policy of Turkey, http://www.byegm.gov.tr/referenses/for-pol-98.htm.

Güler, C. (2021). Türkiye'nin Rusya ve Kafkasya politikası 2020. *Türk dış polıtıkası yıllığı 2020,* SETA.

Məmmədov, N. (2022). İkinci Qarabağ Müharibəsi: Zəfər salnaməsi, Optimist.

Öztürk, M. (2003). Kafkasya'nın Tarihi Coğrafyası ve Stratejik Önemi. *Sekizinci Askeri Tarih Semineri Bildirileri 1*. ATASE Yayınları, 9.

Rəhimov, İ. (2021, yanvar 30). Türkiyə ilə 'Bir Millət-İki Dövlət' formatından 'Bir Millət-Bir Dövlət formatına keçməliyik. https://sumqayitxeber.com/ilham-rehimov-turkiye-ile-bir-millet.

Rəşid, L. (2021, 20 iyun). Şuşa Bəyannaməsi regional və qlobal təhlükəsizliyə zəmin yaradır. *Xalq qəzeti.*

Sapmas, A. (2006). *Rusya Federasyonu'nun Transkafkasya'ya Yönelik Dış Politikasının Türkiye'ye Etkileri* [Yayınlanmış Doktora Tezi]. İstanbul Harp Akademileri Komutanlığı.

Türkiyə Böyük Millət Məclisi Şuşa Bəyannaməsini təsdiqləyib, https://azertag.az/xeber/Turkiye.

*Zəfər yolu. Qarabağ savaşından Şuşa Bəyannaməsinədək.* (2021). Elm.